# AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
*H.Əliyev*

*7 may 2016-cı il №17(8682)*

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı**




## *10 may Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günüdür*

■ Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq. Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Bunu bu gün bir daha bildirmək istəyirəm. Arzu edərdim ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın. Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur. Mən tək deyiləm, hesab edirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür. Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çoxillik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı həmişə uğurlu edibdir və bu gün də uğurlu edir.

■ Əziz dostlar, siz fəxr etməlisiniz ki, müəllimsiniz və müəllimlik peşəsinə sadiqsiniz. Doğrudur, müəllimin maddi vəziyyəti başqa təbəqələrə nisbətən zəif olur, elə keçmişdə də belə idi. Həqiqətən belədir. Məsələn, 70-ci illərdə mən Azərbaycana rəhbərlik etdiyim zaman, yaxud da Sovetlər İttifaqında bu məsələlərlə məşğul olduğum zaman biz daim düşünürdük ki, müəllimlərin maaşını nə təhər artıraq, onların maddi vəziyyətini necə yaxşılaşdıraq. Sizə deyə bilərəm ki, 1984-cü ildə məktəb islahatı keçirilərkən biz eyni zamanda müəllimlərin maaşının artırılması haqqında qərar qəbul etdik. Amma bunlara baxmayaraq, hesab edirəm ki, başqa təbəqələrə nisbətən müəllimlər elə o vaxt da aztəminatlı adamlar olublar və bu gün də aztəminatlıdırlar. Bu, müəllimliyin xüsusiyyətidir. Çünki əsl müəllim pul, sərvət üçün yox, həmişə mənəviyyat üçün xidmət edibdir. Xatirimdədir, orta məktəbdə, pedaqoji texnikumda oxuyanda mənim maddi vəziyyətim, yəni ailəmin vəziyyəti çox zəif idi. Ancaq görürdüm ki, mənə dərs verən müəllimlərin maddi vəziyyəti bizim maddi vəziyyətimizdən o qədər də artıq deyildir. Amma nə qədər həvəslə, sədaqətlə və nə qədər ürəklə bizə tərbiyə, dərs verirdilər. Ona görə də müəllimlik peşəsi həmişə fədakarlıq tələb edir. Bu, belə olubdur. Mən hesab edirəm ki, insan cəmiyyətində ən yüksək yerdə mənəviyyat durur. Maddi vəziyyət, sərvət, bu və ya başqa şeylər xeyli aşağıda durur. Bununla onu demək istəmirəm ki, müəllimlər həmişə maddi çətinlik içərisində yaşamalıdırlar. Yox, sadəcə, bu sözlərimlə mən özünü müəllimlik peşəsinə həsr edən insanın həmin peşəyə sadiqliyini sübut etmək istəyirəm. Ola bilər, o müəllimlər gedib başqa bir işlə məşğul olsaydılar, bir neçə qat artıq fayda götürə bilərdilər və maddi vəziyyətləri də yaxşı olardı. Ancaq onlar müəllimlik peşəsini seçiblər, siz müəllimlik peşəsini seçmisiniz. Buna görə də mən sizə "afərin!" deyirəm, sizin qarşınızda, müəllimin qarşısında baş əyirəm.

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan müəllimlərinin XI qurultayındakı nitqindən (25 sentyabr 1998-ci il)*